# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 502** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***“Satınalma predmeti üzrə satınalma müqaviləsinin nümunəvi formasının təsdiq edilməsi və “Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarının ləğv edilməsi barədə***

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.15-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Mallar üzrə satınalma müqaviləsinin nümunəvi forması” təsdiq edilsin (əlavə olunur).

**2.** “Xidmətlər üzrə satınalma müqaviləsinin nümunəvi forması” təsdiq edilsin (əlavə olunur).

**3.** “İşlər üzrə satınalma müqaviləsinin nümunəvi forması” təsdiq edilsin (əlavə olunur).

**4.** “Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 149; 2019, № 4, maddə 746; 2021, № 5, maddə 520, № 10, maddə 1162) ləğv edilsin.

**5.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 10 yanvar, № 003.- S.8.